# 2015-Cİ İLDƏ TƏHSİL SAHƏSİNDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABATIN QISA XÜLASƏSİ

2015-ci ildə təhsil sistemində şəffaflığın təmin edilməsi, müasir idarəetmə modelinin tətbiqi, keyfiyyətin təmin olunması, kadr potensialının səriştə və kompetensiya baxımından gücləndirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, təhsil sisteminin maddi-texniki bazasının yeniləşdirilməsi, ümumi təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi, dərslik və dərs vəsaitlərinin hazırlanması, gənclərin xaricdə təhsilinin təşkili və digər sahələrdə bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

İl ərzində Təhsil Nazirliyi tərəfindən irəli sürülən təşəbbüslər və həyata keçirilən tədbirlər "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda nəzərdə tutulan hədəflərə nail olunmasına yönəlmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ayrı-ayrı təhsil pillələri üzrə keyfiyyətin yüksəldiləsi baxımından bir sıra əhəmiyyətli nailiyyətlər əldə edilmişdir.

Ölkə Prezidentinin Sərəncamlarına əsasən ali təhsil müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, mövcud maddi-texniki bazadan və elmi-pedaqoji potensialdan səmərəli istifadə olunması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Regionların sosial-iqtisadi inkişaf proqramına uyğun olaraq yeni istehsalat və xidmət sahələrinin ixtisaslı kadrlara ehtiyacını təmin etmək məqsədilə Mingəçevir Politexnik İnstitutunun bazasında ali təhsilin bütün səviyyələri üzrə kadr hazırlığını həyata keçirən Mingəçevir Dövlət Universiteti yaradılmışdır.

Müəllim hazırlığı sistemində yeni yanaşmaların tətbiqi, bu sahədə pərakəndəliyin aradan qaldırılması və səmərəli idarəetmənin təmin edilməsi istiqamətində institusional dəyişikliklər davam etdirilmiş, beynəlxalq tələblərə uyğun məzmunca yeni təhsil proqramlarının hazırlanması işinə başlanılmışdır. Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulmuş, Müəllimlər İnstitutunun Sumqayıt, Salyan, Mingəçevir filialları ləğv edilmişdir.

Bununla yanaşı, keyfiyyətli təhsil verilməsində rəqabətə davam gətirə bilməyən özəl universitetlərlə bağlı tədbirlər davam etdirilmiş, Bakı Asiya Universitetinin fəaliyyəti dayandırılmış, orada təhsil alan tələbələrin digər ali təhsil müəssisələrində yerləşdirilməsi təmin edilmişdir.

Azərbaycan Respublikasında tibb təhsilinin təkmilləşdirilməsi, bu sahədə rəqabət mühitinin formalaşdırılması istiqamətində İ.M.Seçenov adına Birinci Moskva

Dövlət Tibb Universitetinin Bakı filialı yaradılmışdır. Qısa bir vaxtda - 3 ay müddətində Təhsil Nazirliyi tərəfindən Universitetin infrastrukturunun yaradılması, kadr potensialının formalaşdırılması, tələbə qəbulunun təşkili sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilmiş, Universitet 2015-2016-cı tədris ilindən 100 nəfər tələbə ilə fəaliyyətə başlamışdır.

Azərbaycan Dövlət Neft Akademiyası Azərbaycan Dövlət Neft və Sənaye Universiteti adlandırılmış, yalnız Azərbaycanda deyil, dünyada tanınan bu ali təhsil müəssisəsinin tarixi adı bərpa edilmişdir. Hər iki uniuversitetə gənc və perspektivli rektorlar təyin edilmişdir.

Cari ilin dekabrında Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə THOMSON REUTERS şirkəti arasında əməkdaşlıq Sazişi imzalanmışdır. Sazişə əsasən ölkəmizin ali məktəbləri "Thomson Reuters Web of Science" platformasına, eləcə də şirkətin əsas məhsulu olan "Thomson Reuters İnCites" məlumat bazasına çıxış əldə edəcək, effektiv və innovativ tətbiqi tədqiqatların aparılması stimullaşdırılacaq və tətbiqinə dəstək göstəriləcəkdir. Eyni zamanda bu əməkdaşlıq Azərbaycanın ali məktəblərinin dünya reytinq cədvəllərinə daxil olmasına zəmin yaradacaq.

Təhsil Nazirliyinin təşəbbüsü və tabeliyində olan 10 ali təhsil müəssisəsinin iştirakı ilə dövlət büdcəsindən vəsait cəlb edilmədən "Maarifçi Tələbə Kredit" Fondu yaradılmışdır. Fondun əsas məqsədi dövlət və özəl ali təhsil müəssisələrinə qəbul olunmuş, lakin təhsil haqqını və təhsillə bağlı xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan əztəminatlı Azərbaycan Respublikası vətəndaşlarının təhsilinin maliyyələşdirilməsinə dəstək olmaqdan ibarətdir. Həmin Fond vasitəsilə tələbələrə uzunmüddətli təhsil kredit və qrantlarının verilməsi mümkün olacaqdır. Fondun yaradılması ali təhsilin əhalinin bütün təbəqələri üçün əlçatan olması imkanlarını genişləndirmişdir.

Dövlət başçısı tərəfindən "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" 2013-cü il 30 avqust tarixli Sərəncamda dəyişikliklər edilməsi barədə" 10 noyabr 2015-ci il tarixli Sərəncam imzalanmışdır. Sənədin əhəmiyyətli cəhəti odur ki, bundan sonra tələbə təqaüdləri akademik göstəricilərə əsasən müəyyənləşdiriləcək. Sənəd sosial yönümlü olmaqla aztəminatlı ailələrdən olan, ödənişli əsaslarla təhsil alan tələbələrə təqaüd almaq imkanı yaradır. Bununla yanaşı məcburi köçkünlərin, həmçinin təhsil haqqı dövlət tərəfindən ödənilən digər imtiyazlı ailələrdən olan tələbələrin sosial rifahının yaxşılaşdırılmasına yönəlmişdir. Eyni zamanda sərəncam təhsilə marağı stimullaşdırmağa və təhsilalanlar arasında rəqabət mühitini yaratmağa

imkan verəcək ki, bu da təhsilin keyfiyyətinin yüksəldilməsinə və müvafiq olaraq keyfiyyətli kadr hazırlığı aparmağa zəmin yaradacaqdır.

Ali təhsil sistemində yeni mühitin yaranmasına xidmət edən SABAH layihəsi hesabat dövründə fəaliyyətini uğurla davam etdirmiş, layihənin əhatə dairəsi genişləndirilmiş, 2015-2016-cı tədris ilində daha 881 tələbə cəlb edilməklə SABAH qruplarında təhsil alan tələbələrin sayı 1632-ə çatmışdır. Həmin qruplarda xüsusi proqram və müasir tədris texnologiyaları tətbiq edilmiş, xarici dil intensiv tədris olunmuş, peşəkar müəllimlər cəlb edilmiş, onlar üçün təlimlər təşkil edilmişdir. Bu qruplarda Azərbaycanın inkişafına töhfə verəcək, savadlı, bacarıqlı, hazırlıqlı, rəqabətqabiliyyətli mütəxəssislərin yetişdirilməsi nəzərdə tutulmuşdur.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı" üzrə cari ildə 373 nəfər, ümumilikdə isə Proqramın qüvvədə olduğu 8 il ərzində 3558 nəfər Azərbaycan vətəndaşı dünyanın aparıcı təhsil müəssisələrində təhsil almaq hüququ qazanmışdır. Bu günədək 1000-dən çox tələbə məzun olmuşdur. Hazırda məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir. Məzunların işlə təminatı sahəsində təcrübə və karyera layihəsi icra olunur. Layihə çərçivəsində məzunlar bir neçə dövlət və özəl qurumlarda təcrübə keçməyə başlamışlar.

Proqramın cari ildə başa çatması nəzərə alınaraq, yeni Dövlət Proqramının layihəsi hazırlanmış və hazırda razılaşdırma mərhələsindədir. Yeni proqramda xaricdə təhsillə yanaşı, əcnəbi professor-müəllim heyətinin Azərbaycanın ali təhsil müəssisələrində tədrisə cəlb edilməsi, onların iştirakı ilə birgə elmi tədqiqatların aparılması kimi yeni məqsədlər nəzərdə tutulmuşdur.

“Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Macarıstanın İnsan Resursları Nazirliyi arasında 2015-2017-ci illər üzrə İş Proqramı” imzalanmışdır. Proqram çərçivəsində Macarıstanın ali təhsil müəssisələrində 200 nəfər Azərbaycan vətəndaşının bu ölkənin büdcəsi hesabına bakalavr və magistr proqramları üzrə təhsili nəzərdə tutulmuşdur. Proqramın icrasının ilk ilində 51 nəfər Azərbaycan vətəndaşı Macarıstan dövlətinin büdcəsi hesabına bu ölkənin aparıcı ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanmışdır.

Azərbaycan Respublikası və  Çin Xalq Respublikası arasında “2012-2015-ci illərdə təhsil sahəsində əməkdaşlıq haqqında Saziş” çərçivəsində 2015-2016-cı tədris ilində Çində təhsil alacaq tələbələrin seçimi aparılmış və seçimlər nəticəsində 8 nəfər Azərbaycan vətəndaşı təhsil almaq hüququ qazanmışdır. Həmin Sazişin cari ildən qüvvədən düşməsini nəzərə alaraq, 10 dekabr 2015-ci il tarixində “Azərbaycan

Respublikasının Təhsil Nazirliyi və Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında 2016-2019-cu illərdə təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

Hökumətlərarası saziş çərçivəsində Rusiyada təhsillə bağlı qarşı tərəflə görüşlər keçirilmiş, ilkin olaraq yerlərin ixtisaslar üzrə bölgüsünə dair razılaşma əldə olunmuşdur.

Təhsil Nazirliyi tərəfindən "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə təhsili və əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları" hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 may 2015-ci il tarixli 125 nömrəli Qərarı ilə təsdiq olunmuşdur. Bununla da ali təhsil müəssisələrinə dünya praktikasına uyğun əcnəbi vətəndaşların cəlbində müəyyən müstəqilliklər verilmişdir ki, bu da öz növbəsində universitetlərimizdə təhsil alan əcnəbilərin sayının artmasına şərait yaradacaqdır.

Cari ildə Azərbaycan Respublikası ilə Belarus Respublikası, Macarıstan Respublikası, Çexiya Respublikası, Serbiya Respublikası, Rusiya Federasiyası, Qazaxıstan Respublikası, Səudiyyə Ərəbistanı Krallığı, İran İslam Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyaların iclaslarında, Ticarət və İnvestisiya üzrə Azərbaycan-Almaniya Yüksək Səviyyəli İşçi Qrupunun iclasında iştirak etmək üçün Nazirliyin rəhbərliyi və əməkdaşları qeyd edilən ölkələrə ezam olunmuşdur.

Nazirliyin rəhbərliyi, nümayəndə heyəti, əməkdaşları, ali təhsil müəssisələrinin rəhbərləri hesabat ili ərzində Londonda keçirilən Dünya Təhsil Forumunda, Cenevrədə BMT-nin Qadınlara münasibətdə ayrı seçkiliyin bütün formalarının ləğv olunması haqqında Komitəsinin 60-cı sessiyasında, Parisdə YUNESKO-nun regional konfransında, Parisdə "Azərbaycan günü" tədbirində, Strasburqda Avropa Şurasının (AŞ) Təhsil Siyasəti və Təcrübəsi üzrə Rəhbər Komitəsinin iclasında, Moskvada 2-ci Moskva Beynəlxalq Təhsil Salonunda, Koreyada Dünya Təhsil Forumunda, Ankarada "Xarici ölkələrdəki aşağı reytinqli ali təhsil müəssisələrinə Azərbaycan gənclərinin qəbulunun tənzimlənməsi ilə bağlı Tədbirlər Planı"nın icrası ilə bağlı nostrifikasiya sahəsində xarici ölkələrin təcrübəsinin öyrənilməsi və Türkiyənin Ali Təhsil Şurasında (YÖK) işçi qaydada görüşlərlərdə, İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin Təhsil Nazirliklərinin yüksək vəzifəli şəxslərinin 4-cü iclasında, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin təhsil nazirlərinin 4-cü görüşündə, yüksək vəzifəli şəxslərinin 5-ci görüşündə, Astanada TDƏŞ dövlət başçılarının 5-ci toplantısında, İtaliyada "Milan Expo 2015" Ümumdünya sərgisindəki

Azərbaycan milli pavilyonu çərçivəsində keçirilmiş Azərbaycan-İtaliya Universitetlərarası Forumunda, Rusiyanın Yekaterinburq şəhərində VI Rusiya-Azərbaycan Regionlararası Forumunda, Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının, Türkiyə Respublikasının və Türkmənistanın dövlət başçılarının Birinci Zirvə Toplantısı zamanı imzalanması nəzərdə tutulan sənədlərin müzakirəsi və razılaşdırılması məqsədilə Azərbaycan nümayəndə heyətinin tərkibində, Gürcüstanda təhsil üzrə əməkdaşlıq tədbirlərində, Astanada "Birliyin Humanitar Məkanı: Ümumi Dəyərlər və Mədəniyyətlərarası Dialoq" adlı MDB üzv dövlətlərinin yaradıcı ziyalılarının və elm xadimlərinin X Forumunun açılış mərasimində, Rusiyada təhsil sahəsində əməkdaşlıq tədbirlərində, Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycan Gəncləri Təşkilatının sədri xanım Leyla Əliyevanın rəhbərliyi altında Moskvada keçirilən Rusiya Azərbaycan Gəncləri Təşkilatının VI Forumunun açılışında və "Açıq İnnovasiyalar-2015" Forumunun təhsil bölməsində, Fransada Yuxarı Elzas Müluz Universiteninin Dillər və humanitar elmlər fakültəsində Nizami Gəncəvi adına ədəbiyyat və mədəniyyət kafedrasının açılışında, YUNESKO-nun Baş Qərargahında keçirilmiş "Təhsil 2030 Fəaliyyət üçün Çərçivə Sənədi"nin qəbul edilməsi məqsədi ilə yüksək səviyyəli görüşdə iştirak etmişdir.

2015-ci ildə Azərbaycan Respublikasının təhsil naziri və Fransa Respublikasının milli təhsil, ali təhsil və tədqiqat naziri arasında Azərbaycan-Fransız Universitetinə dair Niyyət Məktubu, Azərbaycan Respublikasının təhsil naziri və Rusiya Federasiyasının təhsil və elm nazirinin iştirakı ilə Rusiya və Azərbaycan Ali Təhsil Müəssisələrinin Assosiasiyasının təsis olunması barədə Niyyət Memorandumu, "Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında 2016-2019-cu illərdə təhsil sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

Bununla yanaşı, il ərzində təhsil naziri və nazir müavinləri səviyyəsində xarici ölkələrin yüksək səviyyəli nümayəndələri ilə görüşlər keçirilmişdir: Yuxarı Elzas Universitetinin prezidenti xanım Kristin Qanqlof-Ziqler; Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Ramil Həsənov; Strasburq Universitetinin prezidenti Alan Beretz; İSESKO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tüveycri; Polşanın Baş nazirinin müavini və iqtisadiyyat naziri Janusz Pechocinski; Macarıstanın İnsan Potensialı naziri Zoltan Baloq; Macarıstan Xarici İşlər Nazirliyinin Dövlət katibinin müavini Jolt Çutora; Nobel mükafatı laureatı Corc Smut; Rusiya Federasiyasının təhsil və elm naziri D.Livanov; Malayziya Federasiyasının Təhsil Nazirliyinin nümayəndə heyəti; ABŞ-ın Avropa və Avrasiyaya yardım üzrə Dövlət Departamentinin koordinatorunun köməkçisi

xanım Alina L.Romanovski; "BP" şirkətinin regional prezidenti Qordon Birrel; Əfqanıstanın təhsil naziri Əsədullah Hənif Bəlxi; Pakistan İslam Respublikasının federal təhsil və peşə təlimi, daxili və narkotiklərə nəzarət üzrə naziri Məhəmməd Balığ Ur Rəhman; Küveyt Dövlətinin təhsil nazirinin müavini Heysəm Saleh Əhməd əl-Əsri; İran İslam Respublikasının təhsil naziri Əliəsgər Fani və s..

Bu gün ali məktəblərdə aparılan elmi-tədqiqatların səmərəliliyi xüsusi aktuallıq kəsb edən məsələlərdən biridir. Təsadüfi deyildir ki, dünyada ali məktəblərin reytinqi müəyyənləşdirilərkən əsas göstəricilərdən biri kimi alimlərin əsərlərinə istinadlar nəzərə alınır. Hazırda bu sahədə ali məktəblərimizdə müəyyən işlər görülsə də, vəziyyət qənaətbəxş sayıla bilməz. Azərbaycan Respublikası Prezidentinin AMEA-nın 70 illik yubileyində elmin inkişaf prioritetləri ilə bağlı irəli sürdüyü vəzifələr ali məktəblərimizin əsas fəaliyyət istiqamətlərinə çevrilməlidir.

Eyni zamanda Azərbaycanın ali məktəblərinin beynəlxalq təşkilatlar tərəfindən təqdim edilən proqram və layihələrdə iştirakı genişləndirilməli, qazanılan qrantlar ali təhsilin inkişafına və elmi-təqdqiqatların stimullaşdırılmasına yönəldilməlidir.

Təhsil sənədlərinin tanınması üzrə cari ildə Təhsil Nazirliyinə 4714 müraciət daxil olmuşdur. 1224 ali təhsil haqqında sənədin ölkə ərazisində tanınması, 571 şəxsin ali təhsil haqqında sənədlərinin tanınmaması barədə qərar qəbul olunmuş, 2919 müraciət baxılma mərhələsindədir.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulması əsas məqsədlərdən biri kimi müəyyənləşdirilmiş, bununla əlaqədar “təhsil pillələri və səviyyələrinin beynəlxalq təcrübəyə uyğunlaşdırılması” nəzərdə tutulmuşdur. Cari ildə Təhsil Nazirliyi tərəfindən bu istiqamətdə müəyyən addımlar atılmış, 2013-cü ildən başlayaraq orta ixtisas təhsili müəssisələrində pedaqoji kadr hazırlığı minimuma endirilmiş, əmək bazarında tələb olunmayan digər ixtisaslar üzrə qəbul planları məhdudlaşdırılmışdır. Təhsil Nazirliyinin təşəbbüsü ilə orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması tədbirlərinə başlanılmış, Nazirlər Kabinetinin 17 avqust 2015-ci il tarixli qərarına əsasən 3 kollec profillərinə uyğun ali təhsil müəssisələrinin nəzdinə verilmişdir. Orta ixtisas təhsili müəssisələrinin rasionallaşdırılması, onlar arasında paralelçiliyin aradan qaldırılması, eyni zamanda idarəetmə və maliyyələşdirmənin, kadr hazırlığının səmərə və keyfiyyətinin yüksəldilməsi zərurəti nəzərə alınaraq həyata keçirilən tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuşdur.

Cari ildə peşə təhsili sisteminin infrastrukturunun inkişafına və kadr hazırlığının keyfiyyətinin yüksəldilməsinə yönəlmiş və dövlət-biznes partnyorluğuna əsaslanan “Müasir Azərbaycan Peşəkarları Layihəsi”nin əhatə dairəsi genişləndirilmişdir.

Təhsil Nazirliyi tərəfindən peşə təhsilinin inkişafı ilə bağlı bir sıra beynəlxalq və yerli təşkilatlar, iri işəgütürənlərlə anlaşma memorandumları imzalanmış, birgə əməkdaşlıq çərçivəsində təhsil müəssisələri ilə biznes strukturları arasında tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi, təhsil müəssisələrinin idarəedilməsi və tədris prosesinin təşkilində biznes strukturlarının rolunun artırılması, məzunların işlə təminatına dəstəyin verilməsi, müəllim və rəhbər heyətin bacarıqlarının artırılması, kurikulumların hazırlanması və təkmilləşdirilməsi işləri davam etdirilmişdir.

Azərbaycan Respublikası Hökuməti və Koreya Hökuməti arasında imzalanmış Kredit Sazişi çərçivəsində müasir tipli peşə tədris mərkəzinin yaradılması layihəsinin icrasına başlanmışdır. Layihənin məqsədi əmək bazarının tələblərinə uyğun yüksək ixtisaslı kadrların hazırlanması və qeyri-neft sektorunun inkişafına dəstək verməkdir.

Bununla yanaşı, Təhsil Nazirliyi peşə təhsili sisteminin yenidən qurulması, bu sahədə çevik idarəetmənin təmin edilməsi, işəgötürənlərin tələblərinə cavab verən, əmək bazarında dəyişən şəraitə çevik və adekvat təklif verməyə qadir ilk-peşə ixtisas təhsili proqramlarının işlənib hazırlanması üçün Peşə Təhsili Dövlət Agentliyinin yaradılması təklifini irəli sürmüşdür. Aidiyyəti strukturlar tərəfindən gənclərin tələbat olan peşələrə yiyələnməsi üçün yeni mexanizmlərin axtarılıb tapılması, ilk peşə-ixtisas təhsili müəssisələrinin transformasiyası, ümumi təhsil müəssisələrində IX sinfin yekununda yüksək akademik nailiyyətlər əldə etməyən şagirdlər üçün peşəyönümlü siniflərin yaradılması konsepsiyası üzərində iş sürətləndiriləcəkdir.

Cari ildə müəllimlik peşəsinin ictimai nüfuzunun yüksəldilməsi, yüksək bilikli və hazırlıqlı insanların bu peşəni seçməsinə stimulun yaradılması istiqamətində bir sıra əhəmiyyətli işlər görülmüşdür. Mürəkkəb iqtisadi şəraitin hökm sürdüyü bir dövrdə “Müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında” ölkə Prezidenti tərəfindən imzalanan Sərəncam ölkəmizdə insan kapitalının inkişafına yönəlmiş cəsarətli və uzaqgörən addım olmuşdur. Sərəncama əsasən, 2015-ci ilin yanvar ayından Bakı şəhərində diaqnostik qiymətləndirmədən keçən 30 min müəllimin həftəlik dərs yükü norması 1,5 dəfə, aylıq vəzifə maaşı 2 dəfə artırılmışdır. Aparılan islahat nəticəsində həmin müəllimlərin bir stavka dərs yükü üçün orta aylıq əmək haqqı 425 manat təşkil etməklə, ölkə üzrə müvafiq göstəriciyə yaxınlaşmışdır. Eyni zamanda müəllim-şagird nisbətində əsaslı irəliləyişə nail olunmuşdur. Bu göstərici 2012/2013-cü

tədris ili ilə müqayisədə, 2014/2015-ci tədris ilində 1:10-dən 1:12 nisbətinə yüksəlmişdir.

Diaqnostik qiymətləndirmə hər bir müəllimin zəif və güclü tərəflərini müəyyənləşdirməyə, ixtisasartırma təlimlərinə ehtiyaclarını dəqiqləşdirməyə imkan yaratmışdır. Qiymətləndirmənin nəticələrinə əsasən təlimlərə cəlb edilmiş müəllimlərin 78 faizi yekunda öz göstəricilərini xeyli yaxşılaşdırmağa müvəffəq olmuşdur.

Cari ildə ölkənin 3 şəhər (Sumqayıt, Gəncə, Şirvan) və 9 rayonunda (Xaçmaz, Cəlilabad, Masallı, Hacıqabul, Sabirabad, Saatlı, İmişli, Qubadlı, Abşeron) daha 26 min müəllimin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi həyata keçirilmişdir və 2016-cı ilin yanvarından onların əməkhaqının artırılması planlaşdırılır. Beləliklə, bir il müddətində ölkə üzrə ümumtəhsil məktəbləri müəllimlərinin 40 faizinin əməkhaqqında əhəmiyyətli artım təmin olunacaqdır. Növbəti illərdə diaqnostik qiymətləndirmə mərhələlərlə digər bölgələrdə də davam etdiriləcəkdir.

Cari ildə müəllimlərin tam şəffaf və elektronlaşdırılmış qaydada keçirilən işə qəbulu müsabiqəsində 3068 nəfər işlə təmin olunmuş, vakant yerlərin tutulma səviyyəsi 38 faiz artmışdır. Obyektiv və çevik işə qəbul mexanizminin tətbiqi müəllim peşəsinə marağın artmasına bilavasitə təsir etmişdir. Əgər iki il əvvəl müəllimlərin işə qəbulu üzrə müsabiqəyə müraciət edənlərin sayı 17 min nəfər idisə, cari ildə onların sayı 41 faiz artaraq 24 min nəfər olmuşdur. Kənd məktəblərində işə qəbul olunmuş 1800 nəfər gənc mütəxəssisə Nazirlər Kabinetinin qərarına əsasən həvəsləndirmə tədbirləri tətbiq edilmişdir ki, bu da kənd məktəblərini seçənlərin ötən dərs ilinə nisbətən 30 faiz artması deməkdir. Eyni zamanda kənd məktəblərində işləyən gənc müəllimlərə güzəştli şərtlərlə torpaq sahəsinin ayrılması və ipoteka kreditlərinin verilməsi ilə bağlı təkliflər hazırlanaraq Hökumətə təqdim edilmişdir.

Ümumtəhsil məktəblərinin və müəllimlərin fəaliyyətinin stimullaşdırılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən “Ən yaxşı ümumtəhsil məktəbi” və “Ən yaxşı müəllim” müsabiqələri keçirilmiş, 50 məktəb və 100 müəllim qalib hesab edilərək müəyyən olunmuş qaydada mükafatlandırılmışdır. Ümumilikdə isə 2008-2015-ci illərdə mükafatlandırılan müəllimlərin sayı 800-ə, məktəblərin sayı 400-ə çatmışdır.

Müəllim hazırlığı aparılan ixtisaslar üzrə təhsilin keyfiyyətinin yüksəldilməsi, bu peşəyə savadlı, bilikli gənclərin marağını artırmaq üçün yüksək bal toplayan tələbələr üçün həyata keçirilən “Gələcəyin müəllimi” layihəsi davam etdirilmiş, ali məktəblərə qəbul imtahanlarında 500-dən yuxarı bal toplayan və müəllimlik ixtisaslarını ilk sırada seçən daha 300 nəfər tələbəyə təqaüd verilməsinə başlanmış, ümumilikdə onların sayı

600 nəfərə çatmışdır. Bu tədbirlər qısa zaman kəsiyində öz müsbət nəticələrini vermişdir. Bu il müəllimlik ixtisasını seçən abituriyentlərin orta balı 16 bal artaraq 364, onların arasında 500 və daha yuxarı bal toplayan abituriyentlərin sayı əvvəlki ildən 37 faiz çox olmuşdur. Əgər bir il bundan əvvəl Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olan tələbələrdən cəmi 19 nəfəri 500-dən artıq bal toplamışdısa, bu il onların sayı 10 dəfə artaraq 188 nəfərə çatmışdır.

Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. İbtidai təhsilin inkişafını təmin etmək üçün “Təməl” təqaüd proqramının icrasına start verilmiş, ibtidai təhsilin keyfiyyətinin yüksəldilməsini nəzərdə tutan təlimlərə başlanmışdır.

Ümumtəhsil məktəblərinin I-VIII siniflərində tədris yeni fənn kurikulumları əsasında davam etdirilmiş, həmin siniflərdə işləyən 17 mindən çox müəllim yeni kurikulumların tətbiqi üzrə təlimlərdən keçirilmiş, tədrisin təşkili, müasir təlim starategiyaları və nailiyyətlərin qiymətləndirilməsi sahəsində onlara müvafiq bacarıqlar aşılanmışdır.

İxtisasartırma təlimlərinin səmərəli və peşəkar səviyyədə aparılmasını təmin etmək məqsədilə Nazirlər Kabinetinin 2 dekabr 2015-ci il tarixli qərarı ilə Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun bazasında Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu yaradılmışdır. Bu qurum modul-kredit sisteminə əsasən bütün kateqoriyadan olan təhsil işçilərinin peşəkar inkişafı ilə bağlı siyasətin müəyyənləşdirilməsi, təlimlərin təşkili və əlaqələndirmə işləri ilə məşğul olacaqdır.

Son 3 ildə buraxılış imtahanlarının keyfiyyət göstəricilərində sabit müsbət dinamikanın olduğu müşahidə edilir. Belə ki, 2012-ci illə müqayisədə bütün imtahan fənlərindən müsbət qiymət almış IX sinif məzunlarının sayı 50 faizdən, 2014-cü ildə 62 faizə, 2015-ci ildə 64 faizədək artmışdır. XI siniflərdə müvəffəqiyyət faizi isə 2012-ci ildəki 68 faizdən 2015-ci ildə 74.11% təşkil etmişdir. Beləliklə, 2012-ci ilə nisbətən müvəffəqiyyət faizi IX siniflərdə 11.77%, XI siniflərdə 5.21% artmışdır.

Ötən tədris ilində Təhsil Nazirliyinin təşəbbüsü ilə XI siniflərin buraxılış imtahanlarına xarici dil əlavə olunmuşdur. Bu qərar, gənclərimizin xarici dillərə yiyələnməsinin yaxşılaşmasına, müasir elmi və texniki nailiyyətlərə çıxışın asanlaşmasına və innovasiyaların geniş tətbiqinə zəmin yaradacaqdır.

2016-ci ildə keçiriləcək PİRLS beynəlxalq qiymətləndirmə tədqiqatına hazırlıq məqsədilə 30 məktəbin 1434 nəfər 4-cü sinif şagirdi üçün sınaq testlər təşkil edilmişdir. Məlumat üçün bildirim ki, bu qiymətləndirmənin məqsədi 4-cü sinif şagirdlərinin oxuyub–anlama bacarıqlarının yoxlanılması və nəticələrə uyğun olaraq ölkələrin

reytinqinin müəyyən olunmasıdır. Bu istiqamətdə şagirdlərin sərbəst, şüurlu oxusuna diqqəti artırmaq, mütaliəni genişləndirmək, müəllimlərin diqqətini Azərbaycan dilinin oxu məzmun xətti üzrə işin düzgün təşkil edilməsinə yönəltmək məqsədi ilə "Zərdabi" layihəsinə start verilmişdir. Layihə Bakı və digər bölgələr də daxil olmaqla 18580 dördüncü sinif şagirdi, eyni zamanda 780 müəllimi əhatə etmişdir. Layihə çərçivəsində mentorlar tərəfindən şagirdlər mütəmadi olaraq qiymətləndirilir, nəticələr təhlil olunur.

Cari tədris ilində ölkənin pilot olaraq seçilmiş 58 məktəbində 10-11-ci siniflərdə 4 istiqamət üzrə 176 təmayül sinfi açılmışdır. Həmin məktəblərdə ixtisas seçimini etmiş şagirdlərə qeyri-profil fənlərin dərs saatlarının azalması hesabına seçdikləri istiqamət üzrə daha dərin biliklər verilir. Bu islahatın məqsədi ümumi təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək kompetensiyalara yiyələnmək imkanı yaratmaqdır. Bununla əlaqədar müvafiq tədris resurslarının hazırlanması və təmayüllər üzrə təhsilin əhatə dairəsinin genişləndirilməsi qarşıda duran vəzifələrdəndir.

Məktəblərdə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi istiqamətində 50 məktəbdə Gənclərin çağırışaqədərki hazırlıq kabinetləri təmir edilmiş, müvafiq tədris silah və sursatları ilə təchiz olunmuşdur. Şagirdlərin ordu həyatı ilə daha yaxından tanış olmalarını təmin etmək üçün Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti ilə sıx əməkdaşlıq qurulmuş, hərbi hissələrə şagirdlərin mütəmadi səfərləri təşkil edilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı respublika inşa yazı müsabiqəsi keçirilmişdir. Müsabiqənin rayon, şəhər mərhələsində 15 mindən artıq şagird iştirak etmişdir. Respublika mərhələsinin iştirakçıları arasından 16 nəfər I, 19 nəfər II, 22 nəfər III yerə layiq görülmüş, IV (həvəsləndirici) yer tutan 35 nəfər diplomla təltif olunmuşdur. I-IV yerlərə layiq görülmüş 92 nəfərin inşa yazılarından ibarət "Heydər Əliyev məktəblilərin gözü ilə" kitabı dərc edilmişdir.

İstedadlı şagirdlərin aşkar olunması və onların potensialının inkişafında fənn olimpiadaları və bilik yarışları müstəsna rol oynayır. Cari ildə rekord sayda - 22 mindən çox şagird yeni qaydalara əsasən təşkil edilmiş respublika fənn olimpiadalarına qatılmışdır. 1-ci, 2-ci və 3-cü yerləri tutmuş 231 şagirdə qızıl, gümüş və bürünc medallar təqdim edilmişdir. İlk dəfə olaraq hər fənn üzrə birincilərin birincisi nominasiyası üzrə mükafatlar təqdim edilmişdir.

Qaliblər arasından ölkəmizi beynəlxalq olimpiadalarda təmsil edəcək komandalar formalaşdırılmış, yüksək ixtisaslı alimlər tərəfindən onlar üçün təlimlər

təşkil olunmuşdur. Bu işlərin daha sistemli təşkili məqsədilə olimpiada hazırlıq mərkəzləri yaradılmışdır. Görülmüş işlər nəticəsində məktəblilərimiz bu il dünya fənn olimpiadalarında 2 gümüş, 12 bürünc medal qazanmışlar. 43 ölkənin iştirak etdiyi Beynəlxalq Elm Olimpiadasında məktəblilərimiz 2 gümüş, 3 bürünc medal əldə etmiş, Azərbaycan Avropa ölkələri arasında 3-cü yer tutmuşdur.

Cari ildə paytaxtımız beynəlxalq bilik yarışına ev sahibliyi etmişdir. Dünyanın 80 ölkəsindən 300 məktəblinin iştirak etdiyi 47-ci Beynəlxalq Kimya Olimpiadası Bakı şəhərində keçirilmişdir. Onu da bildirim ki, 2019-cu ildə ölkəmiz Beynəlxalq İnformatika Olimpiadasını qəbul edəcəkdir.

2014-2015-ci tədris ilinin yekunlarına görə ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran 131 nəfər qızıl, 21 nəfər gümüş medalla təltif edilmiş, onlar yüksək göstəricilərlə ali məktəblərə qəbul olunmuşlar.

Ümumi təhsildə əldə olunmuş uğurlar ali məktəblərə qəbul planında müəyyənləşdirilmiş minimal keçid balını son illərdə ilk dəfə olaraq aşağı salmamaq barədə qərar qəbul olunmasını mümkün etmişdir. Bununla belə, qəbul olunanların sayı keçən illə müqayisədə, demək olar, eyni olmuş, abituriyentlərin orta balı 11 faiz artmış, cari ilin məzunlarının orta balı isə əvvəlki ilə nisbətən 22 bal artaraq 250 bal təşkil etmişdir. 500 və daha yuxarı bal toplayan abituriyentlərin xüsusi çəkisi 2012-ci ildə 4,8 faiz təşkil edirdisə, bu il həmin göstərici 7,6 faiz olmuşdur.

Ümumi təhsil sahəsində islahatlar davam etdirilmiş, Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli qərarı ilə “Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi”ndə dəyişikliklər edilmiş və cari dərs ilindən ümumtəhsil məktəblərində dərs məşğələlərinin müddəti iyunun 14-dək uzadılmışdır. Nəticədə tədris həftələrinin sayı uzadılmış, 5 günlük iş rejimi tətbiq olunan məktəblərdə 34.4-ə (ibtidai siniflərdə 33.4-ə), 6 günlük iş rejimi tətbiq olunan məktəblərdə 34.8-ə çatdırılmışdır. Bu qərar ümumi təhsilin beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına imkan vermiş, təhsilin keyfiyyətinin yüksəldilməsinə zəmin yaratmışdır.

Ölkəmizdə müsbət demoqrafik vəziyyət nəticəsində son illərdə I sinfə gələn şagirdlərin sayında əhəmiyyətli artım müşahidə edilir. Belə ki, 2013-cü ildə 1-ci sinif şagirdlərinin sayı 138 min olmuşdusa, 2014-cü ildə bu göstərici 152 min, 2015-ci ildə 157 mindən çox olmuşdur. Növbəti 5 il ərzində ölkə məktəblərində təhsil alan şagirdlərin sayı 30 faiz artması gözlənilir. Bu isə öz növbəsində təhsil sisteminin dayanıqlı fəaliyyətinin təmin edilməsi üçün yeni yanaşmaların tətbiqini zəruri edir.

2015/2016-cı tədris ilinə ümumtəhsil məktəblərinin IV, VI və VIII sinifləri üçün 141 adda 4 milyondan çox nüsxə dərslik və müəllim üçün metodik vəsaitin nəşri və

çapı təşkil edilmiş, müvafiq bölgü əsasında məktəblərə çatdırılması təmin olunmuşdur. Bununla yanaşı, I və II sinif şagirdlərinin sayının əhəmiyyətli dərəcədə artması ilə bağlı I siniflər üçün 10 adda 8 min nüsxə, II siniflər üçün 16 adda 82 min nüsxə dərslik çap olunmuşdur. Bununla yanaşı, dərslik siyasəti sahəsində hüquqi normativ bazanın təkmilləşdirilməsi, dərsliklərin keyfiyyətinin yüksəldilməsi, ehtiyacın düzgün proqnozlaşdırılması, ehtiyat dərsliklərin hazırlanması sahəsində sistemli tədbirlərin həyata keçirilməsi istiqamətindən tədbirlər həyata keçiriləcəkdur.

Ümumi təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi istiqamətində Bakı şəhərində məktəb direktorları və gələcəkdə bu vəzifədə çalışmaq arzusunda olan pedaqoji kadrların peşəkarlıq səviyyəsinin artırılması üzrə yeni mexanizmin tətbiqi davam etdirilmiş, yüksək nəticələr əldə etmiş və “Uğur sertifikatı” almış şəxslər Bakı şəhərinin ümumtəhsil məktəblərində vakant direktor vəzifəsinə təyin edilmişdir. Yeni mexanizmin tətbiqində məqsəd peşəkar kompetensiyalara və idarəetmə bacarıqlarına malik menecerlərin hazırlanması və ümumtəhsil məktəblərinə rəhbər vəzifələrə təyin edilməsidir. 2016-cı ilin yanvarından yeni müsabiqə mexanizminin Sumqayıt və Gəncə şəhərlərində, Abşeron, Xızı, Samux, Göygöl, Goranboy və Daşkəsən rayonlarında tətbiqi nəzərdə tutulmuşdur.

Cari ildən ümumi təhsil müəssisələrində formal valideyn komitələrindən əsaslı şəkildə fərqlənən “Məktəb icmaları” layihəsinə başlanılmışdır. Layihə çərçivəsində 54 pilot məktəb seçilmiş, “Birlikdə öyrənirik, istirahət edirik, inkişaf edirik” devizi altında valideyn, müəllim və şagirdlərlə görüşlər və seminarlar keçirilmişdir. Artıq icmalar yaranan məktəblərdə ilkin müsbət nəticələr müşahidə edilir. Belə ki, icmaların fəaliyyəti nəticəsində məktəblərdə dərsə davamiyyətdə müsbət dəyişikliklər hiss olunur, valideynlər məktəb həyatında daha fəal iştirak etməyə çalışırlar.

Ümumi təhsil sisteminin idarə edilməsi istiqamətində “Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında” Qanunun tətbiqi barədə” ölkə Prezidentinin 7 dekabr 2015-ci il tarixli Fərmanından irəli gələn məsələlərlə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. “Azərbaycan Respublikası Təhsil Nazirliyinin ərazi maliyyə hesablaşma mərkəzlərinin yaradılması barədə” Təhsil Nazirliyinin 14 dekabr 2015-ci il tarixli əmrinə əsasən Təşkilat Komitəsi və İşçi Qrupu yaradılmış, Maliyyə Nazirliyi və yerli icra hakimiyyəti orqanları ilə müzakirələr aparılmış, müvafiq təhlil və hesablamalar aparılmışdır. Aparılmış təhlillərə əsasən 4 regionda Sumqayıt, Ucar, Sabirabad və İsmayıllı rayonlarında 18 rayonu əhatə edən ərazi maliyyə hesablaşma mərkəzi yaradılmışdır.

Cari tədris ilində "Sağlam təhsil-sağlam millət" layihəsinin əhatə dairəsi genişləndirilmiş, cəlb edilmiş 34 məktəbin müəllimləri xüsusi təlimlərə cəlb olunmuş, siniflər lazım olan avadanlıqlarla təmin olunmuşdur. Layihənin əsas məqsədi təhsilalanların sağlamlığı və inkişafını təmin etməkdir.

Təhsil müəssisələrinin İKT və digər rəqəmsal avadanlıqlarla təminatı istiqamətində nəzərdə tutulan tədbirlər davam etdirilmişdir. Hazırda ümumtəhsil məktəblərində hər 18 şagirdə bir kompüter nisbəti təmin olunmuşdur.

Azərbaycan Təhsil Şəbəkəsinə (İntranet və İnternet) əlavə olaraq 300 təhsil müəssisəsi qoşulmuş, beləliklə 2051 təhsil müəssisəsi (44%) İntranet və İnternet şəbəkələrinə çıxışla təmin edilmişdir. Kadr potensialının gücləndirilməsi istiqamətində 4492 müəllim və inzibati heyət təlimlərdən keçərək İKT üzrə bacarıqlara yiyələnmişdir.

İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə təhsilalanların və təhsilverənlərin bu sahəyə cəlb edilməsi məqsədilə Təhsil Nazirliyi tərəfindən elektron tədris resurslarının hazırlanması davam etdirilmiş, e-resurs.edu.az portalının imkanları genişləndirilmiş, e-derslik.edu.az, e-sinif.edu.az, e-telim.edu.az, e-test.edu.az, imtahan.edu.az, i-olimp.edu.az elektron portalları istifadəyə verilmişdir. Elektron tədris resursları keyfiyyətin yüksəldilməsinə, milli təhsil sisteminin modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına, müəllimlərin, şagirdlərin və valideynlərin elektron resurslara çıxış əldə etməsinə geniş imkanlar açmışdır.

"Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institutlaşdırma) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)"nın icrası davam etdirilmişdir. Nazirlər Kabinetinin 2015-ci il 30 mart tarixli 90 nömrəli Qərarına əsasən dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində "Məzun evi" Sosial Müəssisəsi yaradılməş, Təhsil Nazirliyi tərəfindən dövlət uşaq müəssisələrinin məzunları içərisindən 124 nəfər valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş və yaşayış yeri olmayan gənc barədə məlumatlar hazırlanıb Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir. Siyahı əsasında onlar "Məzun evi"ndə mənzillə təmin olunmuşlar.

Təhsil Nazirliyinin müraciəti əsasında "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 5 may tarixli 176 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumtəhsil internat məktəblərinin nümunəvi Əsasnaməsi"ndə dəyişiklik edilməsi barədə" Nazirlər Kabinetinin 13 avqust 2015-ci il tarixli 277 nömrəli qərarı qəbul edilmişdir. Hazırda rayonlarda fəaliyyət göstərən ümumtəhsil internat məktəblərinin yalnız təhsil və günərzi xidmətlərindən istifadə edən şagird kontingenti barədə ətraflı məlumatların

toplanması ilə bağlı monitorinqlər keçirilmiş və həmin müəssisələrin transformasiyası ilə bağlı müvafiq təkliflər hazırlanmışdır.

Yaradılmaqda olan yeni himayədar (foster) qayğı xidmətlərinin fəaliyyətini tənzimləyən “Himayədar (foster) Ailə Haqqında Əsasnamə”, habelə layihənin maliyyə tutumu barədə hesablamalar yenidən hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir. Aparılmış maliyyə təhlilinə əsasən, himayədar ailəyə aylıq müavinətin məbləği minimum əməkhaqqı həddində, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara aylıq müavinətin məbləği yaşayış minimumu həddində, sağlam uşaqlar üçün birdəfəlik müavinətin məbləği yaşayış minimumunun 2 misli, sağlamlıq imkanları məhdud uşaqlar üçün isə yaşayış minimumunun 4 misli həddində nəzərdə tutulmuşdur. Himayədar ailə olmaq istəyən şəxslərə təlimlərin keçirilməsi üçün tədris proqramı hazırlanmışdır.

Uşaqlarına qayğı göstərə bilməyən ailələrin və onların uşaqlarının rifahının yaxşılaşdırılması, uşaqların müəssisələrə düşməsinin qarşısının alınması məqsədi ilə yerlərdə uşaqlar və ailələrə dəstək xidmətlərinin yaradılması, risk qrupundan olan uşaqlar və ailələr arasında sistemli preventiv tədbirlərin görülməsi, qarşıya çıxan problemlərin həllinə kompleks yanaşma ilə onların operativ aradan qaldırılması, uşaqların belə müəssisələrə daxil olmasına ciddi nəzarətin təmin edilməsinin nəticəsi olaraq ölkə üzrə ümumilikdə 604 nəfər uşağın, 2015-ci ildə isə 12 nəfər uşağın dövlət uşaq müəssisələrinə düşməsinin qarşısı alınmışdır. Uşaqların ailələrinin himayəsinə qaytarılması ilə bağlı onların ailələrinin və ya qohumlarının yaşadığı rayonlara səfərlər edilərək Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclasında bu uşaqların ailələrinə qaytarılması məsələlərinə baxılmışdır. Görülən işlər nəticəsində 2015-ci ildə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbləri və uşaq evlərində yaşayan 37 nəfər uşaq Rayon və Şəhər İcra Hakimiyyətlərinin sərəncamı ilə həmin müəssisələrdən bioloji ailələrinin və yaxın qohumlarının himayəsinə qaytarılmışdır.

2015-ci ildə Təhsil Nazirliyinin övladlığa götürülən uşaqların mərkəzləşdirilmiş siyahısında olan 33 nəfər uşaqdan 3-16 yaş arası 10 nəfər uşaq övladlığa verilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 17 noyabr 2015-ci il tarixli 1081 nömrəli əmrinə əsasən Lənkəran şəhərində oğlanlar üçün tikilən Ailə tipli kiçik qrup evi istifadəyə verilmişdir. Dövlət uşaq müəssisələrinin transformasiya üzrə Baş Planın icrası olaraq, indiyədək 12 internat məktəbi transformasiya olunmuş, 2 internat məktəbi ləğv edilmişdir. 2015-2016-cı tədris ilində daha 16 internat məktəbinin transformasiya olunması ilə bağlı müvafiq tədbirlər görülür.

Əlilliyi olan uşaqların ümumi təhsilə cəlb olunması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə BMT-nın Uşaq Fondu (YUNİSEF) arasında "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanmışdır.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli və Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli internat məktəblərinin binası yenidən tikilmiş və 2015/2016-cı tədris ilində şagirdlərin istifadəsinə verilmişdir. 7 internat məktəbində əsaslı təmir-tikinti işləri aparılır. Təmir-tikinti işləri aparılan E.Quliyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 9 nömrəli və Şəki şəhər Qarışıq tipli internat məktəblərinin binasında yeni tədris korpusları inşa edilir.

İl ərzində Təhsil Nazirliyinin tabeliyində olan idman məktəbləri tərəfindən 143 respublika birinciliyi, çempionat, turnir, festival və digər kütləvi idman yarışları keçirilmiş və bu yarışlara iyirmi dörd minə yaxın idmançı qatılmışdır. İdmançılar respublika yarışlarında 350 qızıl, 248 gümüş, 364 bürünc, beynəlxalq yarışlarda isə 87 qızıl, 76 gümüş, 141 bürünc medal qazanmışlar. Ümumilikdə isə məktəbdənkənar müəssisələrimizin yetirmələri 437 qızıl, 324 gümüş və 505 bürünc medal qazanılmışlar.

Birinci Avropa Oyunları qürurverici və möhtəşəm hadisə kimi hər birimizin yaddaşında əbədi olaraq qalacaqdır. Fəxri kürsüyə yüksəlmiş idmançılarımızla yanaşı, 17 min tələbə könüllünün əməyi və fədakarlığı ölkə Prezidenti cənab İlham Əliyev və Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyeva tərəfindən dəfələrlə xüsusilə vurğulanmış, onların vətəndaşlıq mövqeyi nümunə kimi göstərilmişdir.

Cari ilin dekabrında Azərbaycan Tələbə Könüllülərinin I Forumu keçirilmişdir. Forumda "BİR" Tələbə-Könüllü Proqramı təqdim edilmişdir. Proqram pilot olaraq Bakı, Sumqayıt və Gəncə şəhərlərində yerləşən 10 ali təhsil müəssisəsini əhatə etmişdir. Proqramın məqsədi tələbələrin könüllülük fəaliyyətinə və müvafiq tədbirlərə cəlb olunması, onlara "əsl tələbə həyatı" modelinə uyğun 6 müxtəlif istiqaməti (Öyrən, Öyrət, Yaşa, Yaşat, Kəşf Et və Zövq Al) özündə birləşdirən layihənin reallaşdırılmasıdır.

Məktəbəqədər təhsil kurikulumlarının tətbiqi ilə əlaqədar respublikanın şəhər və rayonlarında 8275 tərbiyəçi təlim kurslarından keçirilmişdir. Ötən tədris ilindən Bakı şəhərinin 87 ümumtəhsil məktəbində 5 yaşlı uşaqlar üçün özünümaliyyələşdirmə prinsipləri əsasında fəaliyyət göstərən məktəbəhazırlıq qrupları açılmış, cari dərs ilindən bu qrupların fəaliyyət göstərdiyi məktəblərin şəbəkəsi genişləndirilmişdir. Hazırda 136 təhsil müəssisəsində məktəbəhazırlıq qrupları fəaliyyət göstərir.

Məktəbəqədər hazırlığın şagird nailiyyətlərinə ən böyük təsir edən amil olduğu nəzərə alınaraq, bu təhsil pilləsinin büdcədən asılılığının azaldılması istiqamətində yeni maliyyələşdirmə mexanizmlərinin hazırlanması üzərində iş aparılır.

Hesabat dövrü ərzində 25 təhsil müəssisəsinin fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilmişdir ki, onlardan 16-sı məktəbəqədər, 3-ü ümumi, 2-si əlavə, 4-ü ali təhsil müəssisəsidir.

Təhsil sistemində korrupsiya və digər neqativ hallarla mübarizə cari ildə də əsas fəaliyyətistiqamətlərindən biri olaraq qalmışdır. Bu iş iki istiqamətdə - birincisi, ayrı-ayrı faktlar barədə müvafiq araşdırmaların aparılması və ikincisi, neqativ halların baş verməsinə şərait yaradan amillərin aradan qaldırılması istiqamətində aparılır. Belə ki, cari ildə 7 cinayət əlaməti olan fakt üzrə materiallar prokurorluq orqanlarına göndərilmiş, vətəndaşların şikayətlərində göstərilən hallar təsdiqləndiyi üçün 21 nəfər vəzifəli şəxs tutduğu vəzifədən azad edilmiş, 41 nəfər barəsində müxtəlif intizam tənbehi tədbirləri tətbiq edilmişdir.

Korrupsiyaya şərait yaradan amillərin aradan qaldırılmasına sistemli yanaşma tətbiq edilərək müəllimlərin və məktəb direktorlarının mərkəzləşdirilmiş qaydada işə qəbulu, 1-ci sinfə uşaqların elektron qəbulu, ali təhsil müəssisələri diplomlarının elektron bazasının yaradılması sahəsində effektiv sistem yaradılmışdır.

Cari ildə Təhsil Nazirliyi tərəfindən 9 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, 1 ümumtəhsil, 1 internat, 2 orta ixtisas, 1 ali təhsili müəssisəsi əsaslı təmir edilmişdir. Hazırda 23 təhsil müəssisəsində əsaslı tikinti və təmir işləri davam etməkdədir. 72 təhsil müəssisəsində cari təmir işləri, 1 təhsil müəssisəsində abadlaşdırma işləri və 112 təhsil müəssisəsində kommunikasiya işləri başa çatdırılmış, 12 təhsil müəssisəsi qazlaşdırılmışdır. Təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının təkmilləşdirilməsi istiqamətində 50 məktəbdə müasir laboratoriya yaradılmış və tam təchiz edilmişdir.

İl ərzində təhsil işçilərinin əməyinin qiymətləndirilməsi istiqamətində sistemli iş aparılmış, ölkə Prezidentinin sərəncamlarına əsasən təhsilin inkişafında xüsusi xidmətlərinə görə 129 nəfər dövlət təltifləri ilə mükafatlandırılmış, o cümlədən 1 nəfərə “Şöhrət” ordeni, 62 nəfərə “Tərəqqi”, 2 nəfərə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı verilmiş, 4 nəfər “Əməkdar elm xadimi”, 60 nəfər “Əməkdar müəllim” fəxri adları almışdır. Eyni zamanda, 2014-cü il ərzində 109 nəfər təhsil işçisi Təhsil Nazirliyinin ”Qabaqcıl təhsil işçisi” döş nişanı və 313 nəfər Fəxri Fərmanla təltif edilmişdir.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq 2015-ci il ərzində Mingəçevir şəhərində,

Kürdəmir, Masallı, Şəmkir, Ağsu, Göygöl, Oğuz, Ucar rayonlarında, Sumqayıt şəhərində, Quba, Beyləqan, Sabirabad rayonlarında 600-dək vətəndaş qəbul edilmişdir ki, müraciətlərin 70 faizi müsbət həll olunmuşdur.

Hesabat ilində Təhsil Nazirliyinə vətəndaşlardan 21403 yazılı müraciət, 10332 elektron müraciət, müxtəlif qurumlardan və təşkilatlardan 28919 məktub daxil olmuşdur. Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzinə 94513 (2013-cü ili ilə müqayisədə 8 dəfə çox, 2014-cü ili ilə müqayisədə isə 1,6 dəfə çox) və Kommutator xidmətinə 25000-ə yaxın zəng daxil olmuşdur. Vətəndaşların Qəbulu Mərkəzində 55842 vətəndaşa xidmət göstərilmişdir. Təhsil Nazirliyinin məsul əməkdaşları tərəfindən 6819 vətəndaş sorğularına uyğun olaraq qəbul olunmuşdur. Təhsil Nazirliyinə daxil olan bütün sorğular və müraciətlər mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq cavablandırılmışdır.